**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



Nəcəf bəy Vəzirovun anadan olmasının 160

illiyinə həsr edilir.

# Ədəbiyyatımızın canlı həyat ədibi

**(metodik vəsait)**

**Bakı - 2014**

**Redaktor:** Şəhla Qəmbərova - F. Köçərli adına Respublika
Uşaq Kitabxanasının direktoru

**Tərtib edəni:** Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq
Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı

**Korrektor:** Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq
Kitabxanası elmi-metodika şöbəsinin müdiri

## Tərtibçidən

> Nəcəf bəy cənabları, siz həmişə diri qalacaqsınız. Dünyada siz əkdiyiniz ağacların meyvələrinin toxumlarını külək müsəlman aləminin səhrələrına səpib, göyərdib, minlərcə Nəcəf bəylər yetirib, gözəl niyyətlərinizi daha da rövnəqləndirəcəklər. Sizin adınız tarixlərin vərəqlərində səbt olunub dillərdə zikr olunacaqdır.
>
> **Üzeyir Hacıbəyov**

1896-cı ildə “Müsibəti Fəxrəddin” əsəri ilə Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoymuş Nəcəf bəy Vəzirov əlinə qələm aldığı ilk gündən hiss etmişdir ki, böyük mütəfəkkir M.F.Axundovun əsərləri ilə əsası qoyulan drammaturgiyamızın yolunu davam etdirəcəkdir. Mirzə Fətəli Axundzadənin Azərbaycan mədəniyyəti üçün müəyyən etdiyi ədəbi-estetik inkişaf istiqaməti XIX əsrin ikinci yarısında Seyid Əzim Şirvani (1835-1888), Nəcəf bəy Vəzirov (1854-1926), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) kimi maarifçi-realist sənətkarların meydana çıxmasına və təkcə Azərbaycan deyil, eyni zamanda qonşu xalqların ədəbi-mədəni yüksəlişinə xidmət etməsinə səbəb oldu. Nəcəf bəy Vəzirov da, Mirzə Fətəli Axundzadədən sonra dramaturgiya ilə birinci məşğul olub və Azərbaycan ədəbiyyatında faciə janrının bünövrəsini qoymuşdur. Bu işdə ona Moskvada təhsil alması və rus dili vasitəsi ilə dünya ədəbiyyatı incilərini oxuması, böyük rus dramaturqu Ostrovskinin əsərlərini yaxından izləməsi də öz təsirini göstərmişdir. O həmçinin milli və peşəkar teatrımızın yaradıcılarından, ilk teatr tamaşasını hazırlayanlardan, həm də onun iştirakçılarından biridir.

Dramaturqun məzhəkə və məsxərə janrında yazdığı dram əsərləri milli folklordan, xalq oyun tamaşalarının kompozisiya qurumundan, forma elementlərindən, məzmun xüsusiyyətlərindən bəhrələndiyindən süjeti aydın və sadə, dili zəngindir. Yaradıcılığının sonrakı illərində də xalq dramlarına, meydan oyunları prinsiplərinə əsaslandığına görə Nəcəf bəy Vəzirovun komediyalarının əksəriyyətinin adı atalar sözü ilə verilib. Xüsusən, Həsən bəy Zərdabi kimi təbiətşünas alimin nəşr etdiyi çoxyönlü “Əkinçi” qəzeti (1875-1877) bu dövrdə ədəbi-mədəni həyatın coşğun inkişafına təkan verirdi. Burada özünə yer tapan bir sıra ədəbi-ictimai müzakirə və mübahisələr Azərbaycan ədəbiyyatının humanist ənənələrinin daha da möhkəmlənməsinə və inkişaf etməsinə yardım göstərirdi.

## Ədəbiyyatımızın canlı həyat ədibi

1854-cü il aprel ayının 2-də Azərbaycanın səfalı guşələrindən biri olan Şuşa şəhərində dünyaya göz açan Nəcəf bəy ilk təhsilini dini məktəbdə aldıqdan sonra, Şuşadakı mülkiyyə məktəbində də bir il oxuyur. 1868-ci ildə isə doğma Şuşadan ayrılıb Bakıya gələn balaca Nəcəf Bakıda imtahan verib real gimnaziyanın ikinci sinifinə daxil olur. Gimnaziyada o, öz bacarığı və biliyi ilə müəllimlərin rəğbətini qazanır.

Burada ona dərs demiş böyük mütəfəkkir Həsən bəy Zərdabi ilə tanışlığı N.Vəzirovun fikri inkişafında müstəsna rol oynayır. Çünki, böyük mütəfəkkir, elm xadimi, H. Zərdabi müəllimlik fəaliyyəti ilə şagirdlərdə təkcə elmə maraq oyatmaqla kifayətlənmirdi, çalışırdı ki, onlar xalqın gələcək inkişaf yollarını düzgün anlasınlar, onun azadlığı və maariflənməsi uğrunda mətin mübarizlər kimi yetişsinlər. Elə məhz Zərdabinin məsləhəti ilə N. Vəzirov təbiət elmlərinə xüsusi maraq göstərir, rus klassik yazıçılarının əsərlərini mütaliə etməyə başlayır. 1874 - cü ildə N.Vəzirov real gimnaziyanı gümüş medalla bitirdikdən sonra Peterburqa gedərək universitetə daxil olur. Tələbə vaxtı ağır xəstələndiyindən həkimlərin məsləhəti ilə məktəbini dəyişmək məcburiyyətində qalır. Moskvanın havası ona düşdüyünə görə təhsilini Petrovski Akademiyasında davam etdirir. Əvvəlcə Moskvada yaşasada, sonra dostu Abbas Ağa Gorani ilə birlikdə Peterburqa gedib Əkinçilik institutuna qəbul olunmaq istəyir. Lakin atestatındakı qiymətlər buna yol vermir.Yenidən Moskvaya qayıdır və sentyabr ayında orada Petrovski-Razumovski Meşə və Təbiətşünaslıq Akademiyasının Meşəçilik şöbəsinə daxil olur. N.Vəzirovun Moskvada təhsil aldığı illər Rusiyada azadlıq ideyalarının, zəhmətkeş kütlənin mənafeyini müdafiə edən xalqçılıq hərakatının genişləndiyi bir dövrə təsadüf edir. 1878-ci ilin iyununda akademiyanı bitirib təyinatla Qafqaza göndərilir. Tərcümeyi-halından bəlli olur ki, Petrovski Akademiyasını bitirən Nəcəf bəy Vəzirov bir müddət burada meşəbəyi kimi çalışıb. Buna səbəb də çar idarələrinin Petrovski Akademiyasının məzunlarına şübhə ilə baxmaları olub. Xüsusilə də müsəlman gəncinin belə bir məşhur təhsil ocağında oxuması onların xoşuna gəlməyib. Elə bu səbəbdən də Nəcəf bəy Vəzirov uzun müddət çar məmurlarının təqibinə məruz qalıb. 1890 - cı illərin əvvəllərindən başlayaraq Rusiyada inqilabi-azadlıq hərakatının yüksəlişi ilə əlaqədar Petrovski-Razumovski Akademiyasının məzunlarını orada təqib edirlər. Bununla əlaqədar olaraq N.Vəzirovu da siyasi etibarsızlıqda günahlandırıb işlədiyi meşəbəyi vəzifəsindən azad edirlər. Bundan sonra 1895 - ci ildə o, Bakıya köçür, lazımi imtahanları verib vəkillik vəsiqəsi alır və məhkəmələrdə çalışır. Hələ gənclik illərindən yazmağa böyük həvəsi olan Nəcəf bəy Vəzirov tələbə ikən Bakıda çıxan "Əkinçi" qəzetinə məqalələr göndərib. Bakıda işlədiyi vaxtlar uzun müddət ayrı düşdüyü bədii

yaradıcılığını da davam etdirir, *"Yağışdan çıxdıq yağmura düşdük","Müsibəti-Fəxrəddin", "Pəhləvani-zəmanə"* kimi klassik əsərlərini yaradır.

1903-cü ildə o, Bakı dumasına katib seçilərək şəhər maarif şöbəsi rəisinin müavini təyin edilir və keçmiş müəllimi Həsən bəy Zərdabi ilə birlikdə yeni məktəblərin, müxtəlif tərbiyyə ocaqlarının açılması işində yaxından iştirak edir. Aprel işğalından sonra Bakıda Kənd təsərrüfatı texnikomunda müəllim işləyən Nəcəf bəy Vəzirov 1926-cı ilin yayında təcrübə məşğələləri aparmaq üçün tələbələrlə birlikdə Şamaxının Çuxuryurd kəndinə gedir və iyul ayının 9-da orada ürək tutmasından vəfat edir.

**YARADICILIĞI:**

Qeyd etdiyimiz kimi Azərbaycan xalqının ictimai-tarixi və ədəbi-mədəni həyatında ayrıca bir dövr təşkil edən Mirzə Fətəli Axundzadənin ən yaxın mənəvi varisi tanınmış dramaturq, publisist və teatr xadimi Nəcəf bəy Vəzirovdur. Maarifçi dramaturgiyanın yüksəlişində yeni mərhələ hamıdan əvvəl onun yaradıcılığı ilə başlayır. Həyatın, məişətin və əxlaqın realist səhnədəki əhatə çərçivəsini daha da genişləndirərək, ona yeni çalarlar, üslub və dil fərdiliyi artıran Nəcəf bəy maarifçi didaktikanı son hüduda gətirib çatdırmışdır. Yaradıcılığında nəsr və publisistika ilə məşğul olsa da, ilk növbədə dramaturq kimi ədəbiyyatımızın klassikləri sırasına daxildir. Onun yaradıcılığını əsasən üç mərhələyə bölmək olar.

**Birinci mərhələ: 1873-1900 - cü illər;**
**İkinci mərhələ: 1902-1913 - cü illər;**
**Üçüncü mərhələ: 1913-1921- ci illər.**

Nəcəf bəy Vəzirov dramaturji yaradıcılığa Bakıda olarkən başlayıb. O, ilk dəfə 1873-cü il mart ayının 10-da realnı gimnaziyanın şagirdləri ilə birlikdə Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının tamaşasında oynayıb. Elə həmin il ilk birpərdəli "Əti sənin, sümüyü mənim" (1873) və "Qaragünlü" (1874) məzhəkələrini yazıb. Lakin həmin əsərləri itdiyindən bu əsərlər barədə məlumatı dramaturqun vaxtıilə "Əkinçi" qəzetində yazdığı yazılardan əldə etmişik. Əldə olmayan ikinci məzhəkəsi barədə isə o, tərcümeyihalında bəhs edib.

Moskvada təhsil alarkən oranın teatr mühiti, klassik rus və dünya dramaturqlarının yaradıcılıqları ilə yaxından tanış olan Vəzirov ədəbiyyata daha ciddi meyil göstərib. Tələbə vaxtı "Ev tərbiyəsinin bir şəkli" (1875), "Gəmi lövbərsiz olmaz" (1876) komediyalarını yazıb. Meşəbəyi işləyə-işləyə "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonraki peşmançılıq fayda verməz" (1890), "Adı var, özü yox" (1891), "Yağışdan çıxdıq, yağmura düşdük"("Hacı Qəmbər" 1895) komediyalarını, "Müsibəti-Fəxrəddin" (1896) faciəsini və "Pəhlivani-zəmanə"

("Zəmanə pəhlivanları" 1900) dramını tamamlayıb. Onun yaradıcılığında qələmə aldığı "Müsibəti-Fəxrəddin" əsəri isə ilk Azərbaycan faciəsidir. "Pəhlivani-zəmanə" isə milli burjuaziyanın həyatından, Bakı neftindən bəhs edən, tacir-burjua obrazı təsvir olunan birinci dram əsəridir.

Başlayan 1905-ci il inqilabı N.Vəzirovun ədəbi-ictimai fəaliyyətinin genişlənməsində böyük rol oynayır. Maarifpərvər ədib bir tərəfdən Bakıda çıxan “Həyat”, “İrşad”, “Təzə həyat”, “Açıq söz” və s. qəzetlərində “Dərviş” imzası ilə “Balaca mütəfərrəqələr” başlığı altında felyetonlar yazır, digər tərəfdən dram dərnəklərinə rəhbərlik edir, Azərbaycanda teatr sənətinin inkişafı, aktyor nəslinin yetişməsi üçün yorulmadan fəaliyyət göstərirdi.

Nəcəf bəy Vəzirov yaradıcılığının iknci dövrünə "Ağa Kərim xan Ərdəbili" məzhəkəsi ilə 1902 - ci ildə başlayıb. Bu məzhəkə əslində fransız dramaturqu Jan Batist Molyerin məşhur "Xəsis" komediyasından götürülüb. Lakin Nəcəf bəy əsərə güclü milli ruh verə, koloritli və tipik bədii obrazlar yarada bilib. Məhz buna görə də həmin komediya dramaturgiyamızda daha çox və əsasən, milli sənət nümunəsi kimi şöhrətlənib. Dramaturqun yaradıcılığının ikinci dövrü kimi səciyyələnən bu mərhələdə Nəcəf bəy Vəzirov "Vay şələkümməəlləküm" (1909), "Nə əkərsən, onu biçərsən" (1911), "Keçmişdə qaçaqlar" (1912) səhnə əsərlərini yazıb. Həmçinin müxtəlif teatr qruppalarında coşğunluqla rejissorluq fəaliyyəti göstərib. Bəzən həvəskar aktyor kimi kiçik həcmli rollar da oynayıb.

Nəcəf bəy Vəzirovun ədəbi yaradıcılığının üçüncü dövrü də məhsuldar sayılır. Dramaturq ömrünün ağsaqqal çağında və yaradıcılığının müdriklik mərhələsində "Pul düşkünü Hacı Fərəc" (1912), "Keçmişdə qaçaqlar" (1912), "Təzə əsrin ibtidası" (1920) pyeslərini işləyib. "Mehdi xan Tabasarani" pyesi isə ömrünün sonunda tamamlanmayıb, yarımçıq qalıb.

Sovet dövrünün ilk ilində yazdığı "Təzə əsrin ibtidası" pyesində Nəcəf bəy Vəzirov mülkədar şüuru ilə zəhmətkeş düşüncə tərzini yeni aspektdən qələmə alıb. Nəcəf bəy Vəzirov milli dramaturgiyamıza fəlsəfi təməl, psixoloji dramatizm, faciə obrazlar silsiləsi gətirib.

N.Vəzirovun humanizm, yüksək bəşəri ideallar tərənnüm edən, bədii və ictimai fikir tariximizdə xüsusi yer tutan “Müsibəti-Fəxrəddin” (1896) əsəri Azərbaycan ədəbiyyatında qələmə alınan ilk faciədir. Nəcəf bəy Vəzirovun yaradıcılığı realist Azərbaycan dramaturgiyasının inkişafında əhəmiyyətli rol oynamışdır.

Nəcəf bəy Vəzirov Azərbaycan xalqının sevimli dramaturqudur. Vətənin azadlığı, xalqın maariflənməsi və xoşbəxtliyi onun böyük ideya və arzusu olmuşdur. O, istedadının gücünü, bilik və bacarığını ömru boyu bu yolda sərf etməyi özünə səadət hesab edirdi. Ona görə də, bu yolda nə təqib, nə həbsxana, nə də sibir meşələrinə sürgün onu qorxutmurdu və bütün yaradıcılığı boyu xalqın

səadəti və rifahı missiyasının daşıyıcısı olması ilə qürur duymuşdu. Xalqımız da özünün bu ölməz sənətkarı ilə qürur duyur.

Nəcəfbəy Vəzirov şəxsiyyətini gələcək nəsillərə tanıtmaq insanların qəlbindəki dramaturgiyamıza olan həvəsi, teatrımıza olan sevgini daha da artırmaq hər birimizin üzərinə düşən əsas öhdəliklərdən biridir. Bu sahədə kitabxanalarımızın rolu əvəzsizdir. Belə ki, bu il Nəcəf bəy Vəzirovun anadan olmasının 160 lliyi tamam olur. Bu həmdə milli teatrımızın yaranmasının bayramıdır. Çünki Nəcəfbəy Vəzirov şəxsiyyətinin teatr tariximizin inkişafında çox böyük rolu vardır. Bu münasibətlə kitabxanada bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bunlardan sərgilərin təşkili, dramaturq haqqında müxtəlif slaydların hazırlanıb nümayiş etdirilməsi, bukletlərin tərtibi, ədibin əsərləri haqqında icmalların keçirilməsi, nəzərdə tutulur. Ədəbi-bədii gecənin təşkili daha da maraqlı olan tədbirlərdəndir.

Məlumdur ki, kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formalarının ən geniş yayılmış üsullarından biridir.

Nəcəbəy Vəzirov yaradıcılığı geniş və çoxşaxəli olduğundan sərgi stendlərinin birini Müsibəti Fəxrəddin pyesinə həsr edə bilərik. Müsibəti Fəxrəddin faciəsi haqqında görkəmli adamların, elm xadimlərinin fikirlərini veririk. Həmçinin əsərin tamaşasından götürulmüş fotolarda yerləşdirə bilərik.

## Müsibəti Fəxrəddin əsəri haqqında deyilən fikirlər:

Biz Vəzirovu ona görə çox sevirik ki, o, bizi güclü bir məhəbbətlə sevmiş, yer üzərində humanizm və ədalətin təntənəsinə möhkəm inanmışdır.

**Xalq şairi Səməd Vurğun**

Fəxrəddin surəti mənim xatirimdə böyük insan nəcibliyinin, humanizminin və sevgisinin parlaq surəti kimi canlanır. Dramaturgiyamızda ilk maarifçi olan bu surət Azərbaycanın qaranlıq şəraitində ağlını xalqa xidmətə həsr edərkən, sanki yaradıcısı Nəcəf bəy Vəzirovu təcəssüm edir.

**Xalq şairi Səməd Vurğun**

Fəxrəddinin faciəsində mən o zaman bir çox qabaqcıl görüşlü, irəliyə, maarifə, mədəniyyətə doğru can atan gənclərin faciəsini gördüm.

**Abdulla Şaiq**

Fəxrəddin xeyirxah niyyətlər, nəcib amallar uğrunda mübarizədə məğlub olsa da bu məğlubiyyət faciədə köhnəliyin qələbəsi təsirini bağışlamır. Əksinə Fəxrəddinlərin çoxalacağına və haqqın qələbəsinə inamı artırır.

**Filologiya elmləri doktoru K. Məmmədov**

1. **Başlıq** – " Sevimli ədib, görkəmli dramaturq"

2. **Portret və şairin müxtəlif şəkilləri**.

3. **Yarım başlıq – Seçilmiş əsərləri.**

_______ 1________

________ 2_________

________ 3___________ _______ 4___________

_____ 5______ _____12_____

_____6______ _____13_____

____7______ _____14____

____8_____ _____15____

____9_____ _____16____

____10_____ _____17____

____ 11_____ _____18____

4. **Yarım başlıq – Ayrı-ayrı kitabları**.

**Pyeslər**

5. Ev tərbiyəsinin bir şəkli

6. Daldan atılan daş topuğa dəyər

7. Sonrakı peşmançılıq fayda verməz

8. Adı var, özü yox

9. Yağışdan çıxdıq yağmura düşdük

10. Müsibəti Fəxrəddin

11. Pəhləvani – zəmanə

12. N. Vəzirov “Seçilmiş əsərləri” – Maarif (1976)

13. Seçilmiş əsərləri – Bakı (2002)

14. Əsərləri – Şərq-qərb 2005

15. Azərbaycan ədəbiyyatı – Seçilmiş əsərləri – Çaşioğlu 2006

16.N. Vəzirov “Palıd”
















Yaradıcılığında xalq dramlarına, meydan oyunları prinsiplərinə əsaslandığına görə Nəcəf bəy Vəzirovun komediyalarının əksəriyyətinin adı atalar sözü ilə verildiyindən onun yaradıcılığı haqqında oxucularımızın biliklərini yoxlamaq üçün oxucularla sual-cavab gecələrinin təşkili məqsədəuyğundur.

**1.** Uşaqlar hansı atalar sözlərini bilirsiniz?

**2.** Atalar sözləri ilə adlanan hansı əsərlərin adlarını eşitmisiniz?

**3.** Bəs Nəcəf bəy Vəzirovun hansı əsərinə atalar sözləri ilə başlıq verilib?

**4.** Sizcə niyə dramaturq əsərlərini atalar sözləri ilə adlandırmışdır?

**Kitabxanaçı:** Yağışdan çıxdıq, yağmura düşdük komediyasını oxumusunuzmu? Bu pyes dramaturqun yaradıcılığında M.F. Axundovun yaradıcılığının davamı sayılır. Əsərin qəhrəmanı Hacı Qəmbər yeni iqtisadi münasibətlərin yetişdirdiyi bir tacirdir. Ədib varlanmaq, çoxlu pul qazanmaq ehtirası ilə çırpınan bir tacirin mənəvi aləmini sənətkarlıqla açıb göstərir. Əsərin əvvəlində daha da varlanmaq xəyalı ilə yaşayan Hacı Qəmbər birdən-birə "dəli" olur. İndiyə kimi onu yaşadan qanad verən pul idi. Birdən-birə bütün var-dövlətinin Qara dənizdə batmasını eşitdikdə onu dəli edən də pul olur. Gəlin birlikdə uşaqların əsərdən hazırladığı bir parçaya tamaşa edək:

*Səhnədə əsərə uyğun geyimlərdə uşaqlar görünür.*

*Cavahir xanım tək taxt üstə oturub deyinir:*

Pərvərdigara! Sən özün rəhm eylə, yamanca yerdə axşamladıq, olmayan xətaya düşdük...

**Əşrəf bəy:** (*daxil olur*) Cavahir. Nə olub ay qız? Deyəsən, ağlayırsan?

**Cavahir :** Sənə qurban olum, ay xala oğlu, nə yaxşı sən gəldin.

**Əşrəf bəy:** Nə olub, ay qız, nə olub

**Cavahir:** Nə olacaq?! Hacı Salman biçarə atamı tovlayıb, var yoxunu alıb, verib baramaya, indi də deyirlərki, Qara dəryada gəmi qərq olub, tamam barama batıb. Atam bu əhvalatı eşidib başına hava gəlib, olub dəli, evdən qaçıb. Anam da pir-ocaq qalmayıb, molla-seyid qalmayıb ora qaçır, bura qaçır.

**Əşrəf bəy:** Bu yaxşı iş olmadı**...** Həkim zad gətirmisinizmi?

**Cavahir:** Həkim zad nə qayırır...

**Əşrəf bəy:** Yaxşı ki, mən gəldim, heç fikir eləmə. Həkim gərək, dərman gərək.

**Cavahir:** Gözlərinə qurban, Əşrəf... Bax səni qoymacağam gedəsən, ta ki, atam yaxşı olub sağalanacan.

**Əşrəf bəy:** Durmaq yeri deyil, dəxi mən gedim.

**Dilbər xanım** (gəlir): Cavahir, o suyu mənə ver, dilim ağzım quruyub.

**Cavahir:** Daha heç yerə getmək lazım deyil... İndi elə bu saat Əşrəf dava-dərman gətirəcək, dedi ki, xalam qorxmasın, heç zad olmaz, atamı gətirəcək.

**Dilbər xanım:** Məscid qabağında diz çöküb nə qədər yalvarmışam.

**Aparıcı:**Və nəhayət sonda batırdığı malın əvəzinin dövlət tərəfindən ödənişinin olduğunu eşidəndə sevincinə səbəb də pul olur.

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də **ədəbi-bədii gecələrdir.** Gecəyə məktəblilər, müəllimlər, təhsil işçiləri dəvət edilir. Ədəbi-bədii gecənin ssenarisini təqdim edirik:

**Aparıcı:** Təcrübəli və ustad dramaturq kimi bir-birindən maraqlı pyeslər yaradan Nəcəf bəy Vəzirov Azərbaycan dramaturgiyasının təşəkkül və inkişafında, ədəbiyyatımızın bədii sənətkarlıq keyfiyyətlərinin zənginləşməsində, milli teatrımızın formalaşmasında müstəsna xidmətləri olmuş şəxsiyyətlərdəndir.Gəlin ilk öncə dramaturqun həyat və yaradıcılıq yoluna nəzər salaq.

**Aparıcı**: 1854-cü il aprel ayının 2-də Şuşada anadan olmuş Nəcəfbəy Vəzirovun uşaqlıq illərinə nəzər salarkən görürük ki, gələcəyin böyük ədibi əksər sənətkarlardan fərqli olaraq hələ uşaqkən gözünü açıb ata - anasını sağ görsə də, onlar sağlam olmamışlar. Atası –bütün Şuşada bacarıqsız kimi tanınan Fətəli, anası isə ağır işlərə qatlaşdığından soyuq belə dəyməmiş xəstələnən Mina xanım olub. Butun analar kimi Mina xanımın da arzusu balaca Nəcəfi sağlam kamil təhsilli bir gənc olması idi. Lakin Nəcəfin səhhəti ananın arzusunu bir neçə il gözündə qoysada, on iki yaşının tamamına məktəbə gedən Nəcəf tez bir zamanda yazıb oxumağı öyrənir. Məktəbdə müəllimin amansız rəftarı, yerli-yersiz onu döyməsi onu məktəbdən uzaqlaşdırmağa məcbur edir. Xəstəliklərin doğurduğu ruh düşkünluyu, məktəbdə qarşılaşdığı kobudluqlar isə onu ruhdan salmır.

**Aparıcı:** Mirzə Fətəli Axundzadənin yolunu böyük məhəbbətlə, ehtiramla davam etdirən Nəcəf bəy Vəzirovun Azərbaycan dramaturgiyası tarixində özünəməxsus yeri vardır. ,

**Aparıcı:** *"Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", "Müsibəti Fəxrəddin", "Pəhləvani zəmanə"* və s. kimi ədəbiyyatımıza bir sıra ölməz əsərlər bəxş edən Nəcəf bəy Vəzirov bu gün Azərbaycan dramaturgiyasında faciə janrının banisi sayılır.

**Aparıcı:** Ədəbi fəaliyyətlə yanaşı, uzun illər jurnalistlik fəaliyyəti göstərən Nəcəf bəy Vəzirov öz bədii əsərlərində, xüsusilə də publisistik yazılarında dövrün yaramazlıqlarını tənqid atəşinə tutaraq insanların azad, təhsilli yaşamaları üçün bir maarifçilik çırağı yandırmışdır.

**Aparıcı:** Lakin Nəcəf bəy onu yoran yollardan usanmır, həyatdan küsmür.

**Aparıcı:** O, sözdən çox göz ovuna aludə olan dövrün səhnəsi üçün daha artıq işləməyə səy edir. O, "Pəhləvani zəmanə" liyə, "Müsibəti – Fəxrəddin" liyə, Yağışdan çıxdıq, yağmura düşdük" lüyə daha çox aşiq olur.

**Aparıcı:** Nəcəfbəy Vəzirov 1896-cı ildə "Müsibəti-Fəxrəddin" faciəsini yaratmaqla Azərbaycanda faciə janrının bünövrəsini qoyur. Əsərin qəhrəmanı Fəxrəddin mülkədar ailəsindən çıxmışdır. O, özündən əvvəlki gənclərdən fərqlənərək, həvəslə işə girişən, xalqın rifahı yolunda gözəl əməllərini ifadə etməklə yox, yerinə yetirmək üçün çalışan bir gənc olur. Əsərdə Fəxrəddin artıq dərk etməyə başlayır ki, zəmanə dəyişir, artıq

ata-baba yolu ilə getmək mümkün deyil.

**Aparıcı:** Bu işdə ixtisasca həkim olan Fəxrəddin qarşısına ən çətin seçimi qoyur – nadanlıqla mübarizə.

**Aparıcı:** Fəxrəddin xarabaya bənzər kənddə xəstəxana, məktəb, açmaqla kəndlilərdə özündə rəğbət hissi oyadır. Kəndlilərin maddi rifah halının yaxşılaşdırmağa çalışması onu öz zəmanəsinin mütərəqqi fikirli ziyalısı edir.

**Aparıcı:** Lakin əsərin sonunda gözəl arzuların, niyyətlərin carçısı olan Fəxrəddin məğlub olur. Öz kəndində maarif mədəniyyət çırağı yandırmaq istəyən humanist gənc, vəhşi təbiətli Rüstəm bəy tərəfindən öldürülür. Onun ölüm ayağında dediyi sözlər isə çox təsirlidir. "...Xudaya , mən ölümdən qorxmuram, qüdrət sənin əlindədir, amma rəva deyil ki, mən bir belə zəhmətdən sonra öz mətləbimə çatmamış, arzularıma yetişməmiş cavan, bir gəda sifət adamın əlində bitəqsir bəda gedim. Həvəslə başladığım işin aqibətini görməyib bəda gedim.

**Aparıcı:** Əsərdə Dramaturq özünün cəmiyyət və insan, elm və şüurun azadlığı, təfəkkürün təkamülü və ideal həyat, maariflənmə və sosial tərəqqi ideyalarını Fəxrəddin obrazının timsalında, qadın azadlığı duyğularını isə Səadət xanımın timsalında oxuculara çatdırıb. Faciədə eyni zamanda Feodal patriarxal cəmiyyətinin kübar təbəqəsinin Cahangir bəy, Şahmar bəy, Mələk xanım, Gülbahar xanım kimi nümayəndələrinin və rəiyyəti təmsil edənlərin – qulluqçu Hürü xala, nökərlər Əhməd və Vəli, Hacı Murad və Xəlilin bitkin xarakterləri işlənilib.

**Aparıcı:** "Pəhlivanani-zəmanə" dramında isə eyni dövrün və eyni millətin burjua əxlaq düşüncələrinin rəzil xüsusiyyətləri, neft möhtəkirlərinin dələduzluqları, vəkil Aslan bəyin timsalında qanunun pulla hərraca qoyulması ürəkağrısı ilə qələmə alınıb. Əgər dramaturq "Müsibəti-Fəxrəddin" faciəsində kəndlilərin avamlıq qəflətindən ayılmamalarının müsibətini veribsə, "Pəhlivanani-zəmanə" dramında cəhalət yuxusunda mürgü vuran, torpağı əlindən alınmış Qurban kişinin nadanlığını qabarıq nəzərə çatdırıb.

**Aparıcı:** Yazıçının teatrla tanışlığı və teatra həvəsi lap kiçik yaşlarından Bakıda gimnaziyada oxuduğu dövrlərə təsadüf edir. Gimnaziyada təhsil alarkən görkəmli mütəfəkkir, alim Həsənbəy Zərdabi onu teatra həvəsləndirir.Yazıçının Əkinçi qəzetinin nömrələrində çap edilmiş tərcümeyi-halında onun teatra həvəsi belə təsvir edir.

*Səhnə qurulur. Səhnədə Nəcəf bəy Vəzirovun simasında çıxış etmək üçün şagird səhnəyə gəlir monoloq söyləməyə başlyır:*

**Vəzirov:** Mən 1854 - cü ildə bahar aylarında Şuşa şəhərində anadan doğulmuşam.

Məni on iki yaşında  məktəbə göndəriblər. Üç ayın ərzində Quran oxumağı öyrənib, yazıya başladım. 1868-ci ildə anamın göz yaşlarına baxmayıb, dərs oxumaq üçün Bakıya gəldim. Anamın ağlaması bundan ötəri idi ki, bəlkə mən kənd mirzəsi olub ailəmizi saxlayım. Qohum qardaşlarımızın bizə kömək etməmələrindən  dolayı rəhmsizlikləri məni çox sıxırdı. O, vaxtlar mənim yadıma düşdükcə indidə ürəyim parə-parə olur. Qırx il bundan əqdəm1873 - cü ildə altıncı klasda olduğum halda birinci dəfə rus teatrına getdim. Bu gecə mənə nəhayət dərəcədə əsər elədi. Onun necə bir nəsnə olduğunu başa düşdüm. Sabahı günü gimnaziya  müəllimi Həsənbəy Məlikov cənablarına sordum:

- Aya bizim dilimizdə teatr əsərləri, ya məzhəkə, ya faciə varmıdır?

Məlikov mərhum Mirzə Fətəli Axundovun “Hacı Qara” komediyasını Tapdı. Bu komediyanı pansionda olan müsəlman şagirdləri ilə bir yerdə oynamaq üçün hazırlanmağa başladıq. Tamaşa günü çox adam gəlmişdi tamaşaya baxmağa.Tamaşa çox uğurla keçdi. Həmin gün Həsənbəy Məlikov Hacı qara əsərinin müəllifi M.F. Axundova böyük bir təbrik teleqramı da göndərmişdi.

*Sonda Nəcəf bəy Vəzirovun həyat və yaradıcılığından bəs edən Azərbaycan telefilmin istehsalı olan “Palıd ömrü filmi” nümayiş etdirilir.*

Kitabxanada oxucularımızın xüsusən məktəbli şagirdlərimizin sevimli dramaturqumuz haqqında bilik səviyyələrini öyrənmək üçün dramaturqun həyat və yaradıcılığında əhəmiyyətli hadisələri əks etdirən testlər tərtib edə bilərik. Bunu nəzərə alaraq aşağıda testimizi  sizlərə təqdim edirik

.

1. Əsərləri atalar sözləri ilə başlayan dramaturq kimdir?
   a. Mirzə Fətəli Axundov
   b. Nəcəf bəy Vəzirov ✶
   c. Firidun bəy Köçərli

**2.** Nəcəf bəy Vəzirov neçənci ildə anadan olub?

**a.**1856
**b.**1854 ✶
**c.** 1855

**3.** Nəcəf bəy Vəzirovun  ilk qələmə aldığı əsər necə adlanır?

a. Sonrakı peşmançılıq fayda verməz
b. Əti sənin, sümüyü mənim. (1873-1874) ✶

c. Adı var, özü yox

**4.** Yazıçı əsərlərini hansı mətbu orqanında çap etdirirdi?

a. İrşad
b. Əkinçi qəzetində. ✶
c. Əxbar

**5.** Nəcəf bəy Vəzirov dramaturgiya sahəsində yazdığı əsərləri ilə özünü hansı ədibin sələfi sayırdı?

**a.** Həsənbəy Zərdabi
**b.** Abbasqulu ağa Bakıxanov
**c.** Mirzə Fətəli Axundovun ✶

**6.** Müəllifin atalar sözü ilə başlayan hansı əsərlərini tanıyırsınız?
**a.** "Yağışdan çıxdıq, yağmura düşdük", "Sonrakı peşmançılıq fayda verməz", "Daldan atılan daş topuğa dəyər", "Nə əkərsən, onu biçərsən", "Yeyərsən qaz ətini, görərsən ləzzətini". ✶
**b.** "Müsibəti Fəxrəddin", "Hacı Qəmbər", "Dağılan tifaq", "Bəxtsiz cavan"
**c.** "Təzə əsrin ibtidası", "Şikayət", "Çeşmək", "Pəri cadu",

**7.** Vəzirovun "Hacı Qəmbər" komediyası başqa necə adlanır?
**a.**Təzə əsrin ibtidası
**b.**Keçmişdə qaçaqlar
**c.**Yağışdan çıxdıq, yağmura düşdük .✶

**8.** Nəcəf bəy Vəzirovun komediyalarının əksəriyyətinin adı niyə atalar sözləri ilə başlayır?
**a.** Yaradıcılığının sonrakı illərində də xalq dramlarına, meydan ✶ oyunları prinsiplərinə əsaslandığına görə
b. Hamı tərəfindən tanınmaq üçün
c.Oxucularının yaddaşında əsərin asan yadda qalması üçün

**9**. Dramaturq Nəcəf bəy Vəzirovun hansı əsəri tamamlanmayıb, yarımçıq qalmışdır?
**a.** Təzə əsrin ibtidası
**b.** Pəhləvani zəmanə
**c.** "Mehdi xan Tabasarani" pyesi ✶

**10.** Nəcəf bəy Vəzirov 1978 - ci ildə Həsənbəy Zərdabinin təşəbbüsü ilə təşkil etdiyi məclis necə adlanırdı?

**a.** "Millət dostları"
**b.** "İmdadiyyə" ✶
**c.** "Şikayət"

**11.** Gimnaziyada Vəzirovun müəllimi kim olmuşdur?

**a.** Həsənbəy Zərdabi ✶
**b.** Mirzə Fətəli Axundov
**c.** Əbürrəhimbəy Haqverdiyev

**12.** Yazıçı müxtəlif illərdə hansı vəzifələrdə işləmişdir?

**a.** meşəbəyi; b. hakim; c. Aktyor

## *İcmal*

İcmallar kitabxanada oxucuların yazılan kitablarla maraqlanması üçün keçirilən tədbirlərdən biri olaraq, kitab və əsər haqqında oxucularda geniş təsəvvür və mütaliəyə maraq yaradır. Məlumdur ki, Nəcəfbəy Vəzirov eyni zamanda, təbiətşünas alim kimi də tanınmışdı. Nəcəf bəydə bu elmə maraq Bakıda gimnaziyada oxuyarkən yaranmışdı. Gimnaziyada Nəcəf bəyin təbiət müəllimi, ilk Azərbaycan qəzeti olan "Əkinçi" qəzetinin redaktoru Həsən bəy Məlikov (Zərdabi) bu elmi ona sevdirmişdir. Gimnaziyada təhsil alarkən o, təbiət elmini sevmiş və bu həvəslə Moskvada Petrovski adına Kənd Təsərrüfatı Akademiyasına daxil olmuşdur. Akademiyanı bitirəndən sonra Nəcəfbəy Azərbaycana gəlmiş, Yelizavetpol quberniyasının Dilican meşə sahəsində meşəçi-dendroloq vəzifəsində işləmişdir.Dilicanda işləyərkən ədəbi yaradıcılıqla yanaşı o, meşədə bitən ağaclar və bitkilər üzərində müşahidələr aparmış, Azərbaycan meşələrinə həsr olunmuş




"Palıd" adlı elmi əsərini yazmışdır. Son illərdə bu əsər kitab şəklində Elm və Təhsil nəşriyyatı tərəfindən çapdan çıxmışdır.Gəlin birlikdə bu əsərlə yaxından tanış olaq.

110 səhifədən ibarət olan bu əlyazmasında Nəcəf bəy meşədə bitən ağacların xüsusiyyəti, növü, onların tərkibi haqqında mülahizələrini yazıb toplamış, lakin nəşr etdirməmişdi. "Palıd" Azərbaycanda nəbatat və meşəçiliyə həsr olunmuş ilk elmi əsər kimi dəyərlidir. Burada palıd, fıstıq, qoz ağacı, qızıl ağac, qovaq, qara ağac, ağcaqayın, cökə, şam ağacı, sənubər və b. ağacların bioloji xüsusiyyətləri, təsərrüfat əhəmiyyəti haqqında elmi məlumatlar vardır. N.Vəzirov "Palıd" əsərində Dilican meşəsində müşahidə etdiyi ayrı-ayrı bitkilərin quruluşu və bioloji xüsusiyyətlərindən, meşə bitkilərinin bir-biriylə

qarşılıqlı münasibətlərindən bəhs edir. Kitabda bitkilərin xarici mühitlə qarşılıqlı əlaqəsi elmi nöqteyi-nəzərdən izah edilir.

Kitabda qeyd olunan Nəcəf bəyin ayrı-ayrı ağacların bioloji xüsusiyyətləri haqqında olan fikirləri də maraqlıdır.Burada o, palıd ağacının təsərrüfat əhəmiyyətli, qiymətli material, möhkəm, davamlı olması haqqında danışarkən belə deyir: Palıdın kökü torpağın çox dərinliklərinə getdiyinə görə, şiddətli küləklər onu torpaqdan ayıra bilmir.“Ağaclar arasında palıd möhkəm və qiymətli ağacdır. Palıd hesab edilir meşənin zinəti. Onun kökü bir sajendən artıq yerə daxil olur, heç bir tufan onu kökü ilə yerdən çıxara bilmir. Qanadları qırılır, amma özü dayanır yerində”.



Azərbaycan meşələrində bitən, ona zinət və gözəllik verən palıd ağacının növlərindən danışarkən Nəcəf bəy yazırdı: “Bizim meşələrdə neçə qism palıd ağacı var. Amma ən məşhuru ikidir: biri adi (yaylıq) palıd, o biri (qışlıq) palıddır”. O, əsərdə yaylıq və qışlıq palıd ağaclarının toxum, yarpaq, qoza, kök quruluşları və inkişaf xüsusiyyətlərinə görə birbirindən fərqləndiyini də izah edir. “Qışlıq palıdın yarpaqları bütün qış boyu üstündə qalır, yeni yarpaq əmələ gəlməyincə tökülmür. Yaylıq palıdın qozaları saplaqdan asılır, qışlıq palıd isə gödək saplaqlıdır, öz budağına yapışır”.

Palıdın toxumundan danışarkən Nəcəf bəy onun iki qalın ləpədən ibarət olub, yazda torpağa əkilərkən iki həftə sonra cücərib xaricə çıxdığını izah edir. Adi palıdın inkişafını izah edərkən onun on ilə qədər ləng böyüməsini, ağacda qısa budaqların əmələ gəlməsini izah edən Nəcəf bəy, gödək budaqların inkişaf etməsinə mane olmaq üçün onun ətrafına qoz və qarağac kimi tez böyüyən ağacların əkilməsini məsləhət görür. Çünki bu ağaclar palıdı həm soyuqdan, həm də küləkdən qoruyur. Palıd ağacı bu yolla uzandıqca, onun ətrafındakı ağaclar məhv edilir. Hətta o, palıdın eninə böyüməsinin 150-200 ilə qədər davam etdiyini də qeyd edir. Palıd sıx yerdə bitəndə 60 il yaşayır, yanında bitən ağaclar onun inkişafına mane olur. Əsərdə yaylıq palıdın qışlıq palıddan fərqli cəhətləri də izah edilir: “Yaylıq palıdın yarpaqları gödək saplaqlı olur.

Kitabda həmçinin inşaatda istifadə edilən dəyərli palıd ağaclarının yetişdirilməsi üçün elmi məsləhətlər verirdi.



Nəcəfbəy fıstıq ağacının quruluşu və onun inkişafından danışarkən qeyd edirdi ki, bu ağac 10 yaşına kimi gec böyüyür, 10 yaşından sonra budaqlanaraq uzanır”.



Tozağacından bəhs edərkən Nəcəfbəy onun da Azərbaycan meşələrində yayıldığını qeyd edir:

"Azərbaycan meşələrində tozağacı az - az tapılır, o da dağlarda, meşənin qurtaracağında. Ömrü 150 ildən artıq olmur." Yazıçı tozağacının köklərinin quruluşundan, işıq və tufana qarşı münasibətindən, sənayedə əhəmiyyətindən ətraflı məlumat verir.

Əsərdə müəllif qızılağac, söyüd, qovaq, ağcaqayın, göyüş, çökə, şam və sənubər kimi qiymətli ağaclardan, Azərbaycan meşələrində bitməsindən, onların bioloji xüsusiyyətlərindən məlumat verir. Nəcəf bəy ağaclardan bəhs edərkən onun Azərbaycan dilində adlarının yanında rusca və latınca da adlarının tərcüməsini verirdi ki, oxucular üçün aydın olsun.

Meşədə bitkilər arasında yaşayış uğrunda gedən mübarizədən söz açan N.Vəzirov göstərir ki, ağacların hamısının bir boyda olmaması üzündən, ucaya qalxan ağaclar alçaqda qalanların işığına mane olur. O, ağacların meşədə tələf olma səbəbini düzgün izah edərək yazır: "Ağaclar tələf olurlar, ondan ötrü ki, meşədə işıq və rütubət torpaqdan kəsilik ola, xeyr, tələf olur ondan ötrü ki, o maddələri qonşuları qüvvətli olub onların həyatından alırlar".

Ağaclar arasında yaşayış uğrunda gedən mübarizədə yaşlı ağacların sayının çox olmasını vurğulayan Nəcəf bəy göstərirdi ki, bu "mübarizə" cavan ağacların inkişafına mane olur, onların 95 faizi tələf olur. Burada o, belə nəticəyə gəlir ki, cəmiyyətdə insanlar da həyat uğrunda mübarizə edərkən güclülər gücsüzü məhv edir.

Əsərin **"Meşənin həyat qüvvəsi"** adlı hissəsində "ağaclar arasında ölüm-dirim mübarizəsindən" bəhs edən alim göstərir ki, təbiətdə yaşayış uğrunda mübarizədə qalib gələn canlılar, özlərindən sonra nəsil qoyub gedirlər, mübarizəyə uyğunlaşa bilməyən canlılar isə nəsil vermir, məhv olurlar. Ağacların bar gətirməsinin də müxtəlif olduğunu o, apardığı təcrübəyə əsasən izah edərək belə nəticəyə gəlir ki, yaşayış səviyyəsi ağacların bar verməsində ən mühüm amildir. Şam meşəsində yaxşı toxumlu, ildə cürbəcür ağacların bar gətirmək qüvvəsi bərabər deyildir. N.Vəzirov meşədə təklikdə, seyrək yerlərdə bitən ağacların nisbətən 10-20 il tez yetişdiyini və bar vermə qabiliyyətini açıqladıqda, bunu işıq və qida mənbəyinin çox olması ilə izah edir. Asudə bitən ağacların yetişmə qabiliyyəti güclü olur.Meşədə bitən ağacların asudə bitən ağaclardan boyca qısa, köklərinin də dərinə getməsinin zəif olması haqqında söz açan Nəcəfbəy əsas səbəb olaraq, başqa ağacların onu sıxışdırmasını, havadan və torpaqdan lazımi qida almamsını göstərir. O, yer üzərindəki meşələrin, ab - hava və torpağın müxtəlif olmasını, həyat şəraitinin başqa - başqa olmasını təbii hal kimi izah edir: "Meşədə

yerin şimal tərəfi, cənub tərəfi, gün batan, gün çıxan tərəfləri yenə də meşə üçün bir deyil".
O, bu fikrini söyləyərkən ən çox müxtəlif bölgələrdə olan Azərbaycan meşələrinin öyrənilib araşdırılmasını gələcəkdə gənclərin öhdəsinə buraxır.
***"Ağacların işığa nisbəti"*** bəhsində N.Vəzirov bəzi ağacların yaxşı və ya pis böyüyüb inkişaf etdiklərini müşahidə etmiş və ağacları işıq sevən və sevməyən deyə iki qrupa bölür. O, izah edirdi ki, gövdəsi qalın ağaclar işığı sevir, gövdəsi seyrək ağaclar isə işığı sevmirlər, işıq sevən ağacların gövdələri təmizlənir.
N.Vəzirov əsərin "Cinsbəcins ağacların rütubətə nisbəti" bəhsində bitkilərin suya olan münasibətinə görə quraqlıq sevən, rütubət sevən və miyanə su sevən bitkilər deyə qrupa bölür və hər qrupa aid misallar göstərir. O, təcrübə nəticəsində şam ağacının 1-ci bitkilər qrupuna daxil olmasını şərh edir və şabalıd, palıd, qara ağac, toz ağacını da istiliyə tələbkar ağaclar qrupuna daxil edir və bu ağacları gələcəkdə yenidən öyrənməyi məsləhət bilir. "Ağacların torpaqda mədəni maddələrə nisbəti" bölməsində meşə ağacları ilə bitkiləri müqayisə edilir və meşə ağaclarının digər bitkilərə nisbətən torpaqdakı qida maddələrinə az tələbkar olduqları göstərilir. Çünki bitkilər əmələ gəlməyən torpaqlarda meşə ağacları əmələ gəlir. O, meşə torpaqlarında, çəmən və çöldəki torpağa nisbətən üzvi maddələrin çox olduğunu göstərir.
"Ağacların törəməsi" bölməsində ağacların toxumlu və toxumsuz olmaqla iki cür çoxalmalarını, xasiyyətlərini izah edir və göstərir ki, toxumsuz pöhrə gəlir və sıxılmış ağaclar törənir. O, göstərir ki, pöhrə vermək ağacın cinsinə və yerinə bağlıdır, torpaq qüvvətli olarsa, pöhrə vermək qabiliyyəti uzanır. Demək, bitkilərin yaşaması üçün xarici mühitin və torpağın əhəmiyyəti əsas şərtdir.
«Elm və təhsil» nəşriyyatında görkəmli dramaturq Nəcəf bəy Vəzirovun meşəçiliyə həsr edilmiş «Palıd» əsəri çapdan çıxmışdır. Kitabı Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şöbə müdiri Mehri Məmmədova nəşrə hazırlamış, redaktoru isə Akif Quliyevdir.
"Palıd" əsərinin elmi əhəmiyyəti çox böyükdür. Nəcəf bəy burada meşə mühəndisləri üçün maraqlı cədvəllər, mürəkkəb riyazi düsturlar da vermişdir. Bu əsər Azərbaycanda meşəçiliyin əsasını təşkil edir. Bu sahə üzrə Nəcəf bəy Bakıda Kənd Təsərrüfatı Texnikumunda müdir müavini işləmiş və təbiətdən dərs deyən ilk azərbaycanlı müəllim olmuşdur. O, 1926-cı ildə texnikum tələbələrini Şamaxıya, Çuxuryurd meşəsinə təcrübə keçmək üçün aparmış və orada ürək çatışmamazlığı xəstəliyindən vəfat etmişdir.

Nəcəf bəy Vəzirovun həyat və yaradıcılığından yazçı Qılman İlkin tərəfindən qələmə alınmış "Həyat yollarında" povestində söhbət açılır. Əsərdə N.Vəzirovun bir dramaturq kimi şöhrəti ilə yanaşı uşaqlıq illəri, gimnaziyada təhsil aldığı zaman, xalasının yanında gördüyü çətinlikləri, əziyyətləri qələmə

alınmışdır. Əsərdə həmçinin onun gimnaziyada sevimli müəllimi olan Həsənbəy Zərdabi haqqında da, söhbət açılır. Povesti oxuyarkən gözümüzün önündə çətinliklər görmüş, lakin heç zaman ruhdan düşməyən ümidlə irəli addımlayan insan ömrü canlanır. Bir tərbiyə müəsisəsi olaraq oxucularda zəhmətə əməyə sevgini, həyatda hər bir çətinliklərə qarşı mübariz olmaq kimi fikirlərini aşılamaq üçün "Həyat yollarında" povestinin kitabxanada icmalının keçirilməsi məqsədə uyğundur. Bu həmdə Nəcəf bəy Vəzirov yaradıcılığını tanıtmaq üçün əhəmiyyətlidir. Əsərdən bir parca səhnəcik hazırlaya bilərik.

*(Səhnə məktəbi xatırladan bir şəkildə qurulur. Uşaqlar səhnəyə yığışır.Tənəffüsdə dəhlizdə gəzişirlər. Balaca Nəcəf isə xüsusi gimnaziya geyimi olmadığından yoldaşlarından seçilır. Direktor onu dəhlizdə görüb yad uşaq zənn edir, sorğu-suala tutur:)*

**Direktor:** Sən burda neynirsən?

*(Balaca Nəcəf özünü itirir nə cavab verəcəyini bilmir)*

**Nəcəf:** Mən burada oxuyuram, ikinci sinifdəyəm

(Direktor onu başdan ayağa süzür)

**Direktor:** Adın nədir? – deyə acıqlı soruşur.

**Nəcəf:** Nəcəf Vəzirov.

**Direktor:** Hirsli-hirsli deyir – Gəl dalımca.

*( Onlar direktorun otağına keçirlər, direktor qəzəblə: bu nədir sənin gimnaziya geyimin niyə fərqlənir o birisi uşaqlardan? Nəcəf onun sualını başa düşmür )*

**Nəcəf :** Heç bir şey olmayıb, mən sizin sualınızı başa düşmədim.

**Direktor:** Bir aya yaxındır gimnaziyada dərs başlayıb, bəs sənin gimnaziya paltarın hanı?

**Nəcəf:** Tikdirəcəyəm.

**Direktor:** Tez tikdirmək lazımdır. Artıq bir aya yaxındır ki gimnaziyada dərs başlayıb. Sənə beş gün vaxt verirəm.

**Aparıcı:** Nəcəf evdə atasının yoxsul və xəstə olduğunu bildirmək istədi, lakin demədi. Qorxdu ki, onu böyük əziyyətlə daxil olduğu gimnaziyadan çıxardarlar.

**Aparıcı:** Direktorun təyin etdiyi vaxt yaxınlaşırdı. Nəcəf bütün gecələri yatmır, fikirləşirdi. Heç kəsə ümidi gəlmirdi. Nəcəf axır ki, direktorun dediklərini xalasına danışdı. Xalası Nəcəfi dinlədikdən sonra, onu qohumu olan Əmənulla adlı şəxsin yanına

aparır və gəlişinin məqsədini ona ətraflı danışır. Əmənulla ona qulaq asdıqdan sonra üzünü Nəcəfə tutur:

**Əmənulla:** Bala saymaq bilirsən?

**Nəcəf:** Bilirəm.

**Əmənulla:** Neçəyə qədər saya bilirsən?

**Nəcəf:** Milyona qədər.

*(Əmənulla Nəcəfin xalasına tərəf üzünü tutub düzələr deyir, ona bir iş taparam, dərsdən sonra qəpik-quruş qazanar. Bundan sonra Nəcəf dərsdən sonra limana gələn gəmilərdə yükləri boşaltmağa kömək edib gündəlik pulunu qazanır.)*

**Aparıcı:**1873-cü ildə Mirzə Fətəlinin əsəri bizim böyük maarifçimiz Həsən bəy Zərdabinin təşəbbüsü və rəhbərliyi ilə tamaşaya qoyulanda, o tarixi tamaşada şagirdlərlə bərabər Əsgər Ağa Adıgözəlov Gorani və Nəcəf bəy Vəzirov da iştirak edirdi. Baxın, Nəcəf bəy professional teatrımızın o ilk tamaşasında... qadın (Ziba xanım) rolunu ifa edirdi. Mirzağa Əliyev xatirələrində həmin gün haqqında yazır ki, 1916-cı ildə "Müsibəti-Fəxrəddin"i tamaşaya hazırlayırlar, Hürü nənə rolunu oynamaq üçün aktrisa tapa bilmirlər və müəyyən olunmuş premyera günü bu rolu... Nəcəf bəy özü ifa edir. Mirzəağa Əliyev bu hadisəni belə xatırlayaraq yazır: "Əllərim qoynumda, əsəbi halda səhnə arxasında vargəl edirdim. Bu zaman Nəcəf bəy göründü... Paltarları Nəcəf bəyə verdilər. Nəcəf bəy yavaş-yavaş, dinməz-söyləməz Hürü nənənin paltarını geyinib, saqqalını, bığını gizlətməkçün üzünə yaşmaq tutdu və səhnəyə çıxdı..."

Artıq söhbət 1873-cü ildə olduğu kimi, 19 yaşlı bir teatr həvəskarından yox, 62 yaşlı məşhur bir yazıçıdan, böyük bir ziyalıdan, ağayana, təmkinli, abırlı, kübar bir insandan gedir və elə bu faktın özü, sənət sevgisindən doğan həmin fədakarlıqdan, sözün yüksək mənasında həmin sənət fanatizmindən xəbər verən bir nümunədir ki, tarix boyu teatr möcüzəsini yaradan da məhz elə bu cür nümunələrdir.

Nəcəf bəy Vəzirov kimi şəxsiyyətlər sayəsində bu gün Azərbaycan teatrı özünün yeni inkişaf mərhələsini yaşayır.

Ədəbiyyat siyahısı


1. Vəzirov N. Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. - 296 s

2. Vəzirov N. Əsərləri. - Bakı:Şərq-Qərb, 2005.-304 s.

3. Vəzirov N. Seçilmiş əsərləri. – B:Maarif,1976. – 172 s.

4. Vəzirov N. Əsərləri. – B:Şərq-Qərb,2005. – 419 s.

5. İlkin Q. Seçilmiş əsərləri. – Azərnəşr, 1989. – s. 375-419


**Dövri mətbuatda:**


Xalqın qəlbində yaşayır. – Bakı,1979.
N.B. Vəzirovun tələbəlik illəri. – Azərbaycan müəllimi,1997.
Məşəqqəti – həyat, səadəti – ad... – Mədəniyyət, 2013. – S.13
Nəcəf bəy Vəzirov. – Savalan, 2008. – 25-30 aprel
Nəcəf bəy Vəzirov. – Savalan, 2009. – 6-19 avqust
Tragik şərait və tragik qəhrəman. – 2004. – 3 sentyabr